

**ABDULRƏHİMOVA KÖNÜL ELMAR QIZI**

Abdulrəhimova Könül Elmar qızı 1976-cı il sentyabrın 29-da Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur.

Elmi-pedaqoji iş stajı 22 ildir.

1999-cu ildən Azərbaycan Dövlət Dillər İnstitutunda İngilis dilinin leksikologiyası kafedrasında müəllim, 2008-ci ildən Azərbaycan Dillər Universitetində həmin kafedrada baş müəllim vəzifəsində calışmışdır.

Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D02.081 Dissertasiya Şurasının 22 noyabr 2008-ci il tarixli iclasında "İngilis dilində "with" sözönülü birləşmələr və onların Azərbaycan dilində qarşılığı "adlı namizədlik dissertasiyasını mudafiə etmişdir.

2009-2011 ci illərdə Azərbaycan Dillər Universitetinin 1№li İngilis dili fakültəsində Tədris işləri üzrə dekan müavini vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 fevral 2010-cu il (protokol №06-k) tarixli qərarı ilə filologiya üzrə fəlsəfə doktorudur.

Bir neçə dissertasiya işi, məqalə, kitablar, dərslik və dərs vəsaitlərinin rəyçisi olmuşdur.

2010-2013-cü illərdə ADU-nun İngilis dilinin leksikologiyası kafedrasının dosenti olmuşdur. 2013-2015-ci illər Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrasında tam ştat müəllim işləmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurası tərəfindən müəyyən olunmuş qaydada müsabiqə yolu ilə 22 may 2015-ci il tarixində Dillər kafedrasında tam ştat dosent əvəzi vəzifəsinə təyin edilmişdir.

Azərbaycan  Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 18 aprel  2018-ci il tarixli (protokol№ 12-k) qərarı ilə Dillər kafedrası üzrə Dosent adı verilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının ”Dövlət İdrəçiliyi: nəzəriyyə və təcrübə”  jurnalında dərc olunmuş məqalələrin xülasələrinin ingilis dilinə tərcümə etmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Siyasi İdarəetmə” və “İnzibati İdarəetmə” fakültələrində ingilis dili fənnini tədris edir.   Hal-hazırda ingilis dili fənnindən minimum imtahanı üzrə komissiyanın üzvüdür.

31 elmi və tədris-metodiki işi vardır, o cümlədən onun 26-sı elmi məqalə, 2-i məruzə materialı, 3 dərs vəsaiti və 2 fənn proqramıdır.

**Kitabları:**

1.“A Guide to English Word-Study” (“Ingilis dilinin leksikologiyası” fənnindən dərs vəsaiti)// Azərbaycan Respublikasının Təhsil Nazirinin  30 yanvar 2013-cü il tarixli 172 saylı əmrinə əsasən çap olunmuşdur.    “Elm və təhsil” nəşriyyatı, Bakı, 2013, 200 səhifə.

2. Dictionary of Semantic Terms(with explanations in English and their  Azerbaijani and Russian translations), Semantik Terminlərin izahlı lüğəti (ingiliscə, Azərbaycanca, rusca),  Azərbaycan Dillər Universiteti, “Elm və təhsil” nəşriyyatı, Bakı, 2014, 124 səhifə.

3. “Readings for Law Students” (Ali məktəbin hüquq fakültəsinin tələbələri üçün ingilis dilindən dərs vəsaiti) // Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədris-Metodik Şurasının 13 fevral 2017-ci il tarixli iclasının qərarı ilə (pr.№ 03) çapa tövsiyə edilmişdir.” Mütərcim” nəşriyyatı, Bakı, 2017, tiraj 200, 184 səhifə.

**Proqramları:**

**1.**“Semantik təhlil”fənni üzrə proqram.  Ali təhsilin magistratura pilləsi üçün// Azərbaycan Respublikasının Təhsil Nazirinin 13 fevral 2014-cü il tarixli 173 saylı əmrinə əsasən çap olunmuşdur.“Elm və təhsil”nəşriyyatı,Bakı, 2014, tiraj 500, 16 səhifə.

**2.**“Xarici dil” (İngilis dili) fənni üzrə proqram. Ali təhsilin bakalavriat səviyyəsinin Hüquqşünaslıq ixtisası üçün.//Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 03.07.2017-ci il tarixli 171 №li əmri ilə təsdiq edilmişdir.Bakı, 2017, tiraj 100, 16 səhifə.

**Son illərdə dərc olunan elmi məqalələri:**

**1.** İngilis atalar sözlərinin struktur modelləşməsi (məqalə) ADU-nun Elmi Xəbərləri, Bakı-2016, №5, s.41-44

**2.** Ingilis atalar sözlərində inkarlıq bildirən sintaksemlərin paradiqmatik sırası (məqalə). “Filologiya məsələləri”, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2017, № 5, s.91-96

**3.**Professionallıq sinfindən olan inkarlıq mənalı elementlərin sintaksem təhlili-ingilis atalar sözlərinin materialı əsasında (məqalə). Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal 4(108), Bakı, 2018, s.67-69

**4.** Ingilis atalar sözlərində “to make” feili ilə düzələn leksik birləşmələr. “Filologiya məsələləri”, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2019, № 14, s.83-87